ƏFSANƏLƏRDƏ DƏDƏ QORQUD VƏ OĞUZLA BAĞLI İZLƏR

Naxçıvan regionundan toplanmış folklor nümunələrinin araşdırılması belə qənaətə gəlməyə əsas verir ki, Oğuzla, Dədə Qorqudla bağlı əfsanələr öz kökü etibarı ilə daha əski dövrlərə gedib çıxır. Bu təsadüfi deyil. Çünki qədim Azərbaycan ərazisi və onun tarixi bir əyaləti olan Naxçıvan regionu ən ibtidai zamanlardan türk soylarının ərazisi olmuşdur. Burada yaşamış türk-oğuz tayfaları öz həyatlarının müxtəlif məqamları ilə bağlı hadisələri əfsanələşdirmiş, insanın, dünyanın yaranması ilə bağlı mifik təfəkkürlərini əks etdirən əsatirlər yaratmışlar. Belə əsatirlərdə, əsatiri əfsanələrdə Azərbaycan türk folkloruna məxsus arxaik xüsusiyyətlər, motivlər qorunmuş, bəziləri indiki dövrümüzə gəlib çatmışdır.

Naxçıvan regionundan Ucıbılıqla bağlı qeydə alınmış əfsanələr kökü və mənşə etibarilə arxaik xüsusiyyətləri qoruyub saxlamışdır. Bunlardan bir-ikisi haqqında danışıldığından, başqa ikisi haqqında danışmağı lazım bilirik.

Bu etibarlı mənbənin, daha doğrusu, eposun V-VII əsrlərdə formalaşdığı fikrini əsaslı sayırıq. Bu barədə əvvəlki illərdə çap olunmuş elmi məqalələrdə də danışmışıq. Bir çox tədqiqatçıların da fikri bunu təsdiq etməkdədir. Bu məsələlərə toxunan xalq yazıçısı Anar yazır: "Bir çox müasir Azərbaycan qorqudşünasları, o cümlədən, tarixçi S.Əliyarov, ədəbiyyatşünaslardan M.Seyidov, Ş.Cəmşidov, dilçilərdən T.Hacıyev, K.Vəliyev, E.Əlibəyzadə "Kitabi-Dədə Qorqud"un VII əsrdən gec olmayaraq formalaşmasını göstərirlər. Şübhəsiz, dastanın yaranma və formalaşma tarixi haqqında bu fikir məntiqidir" "(Azərbaycan" jurnalı, s. 118). Bunlardan başqa da eposun V-VII, VI-VII əsrlərdə formalaşdığını yazan tədqiqatçı alimlər çoxdur. Yaxın illərdə Azərbaycan dövlətində eposun 1300 illik yubileyinin dövlət və dünya səviyyəsində qeyd olunması da uzun illər qazanılan elmi nəticələrin təsdiqidir. Bu mötəbər mənbə bu gün xalqımızın folklorunun, soykökünün dərin qatlarına getmək üçün daha geniş imkanlar yaradır.

Bu əfsanələrdə də Ucıbılıq nəhəng, kələntər adamlar kimi təsvir olunur. Ucıbılıqın əsatirlərdəki bir adı da Ucuquludur (Naxçıvan folkloru, I k, Bakı, sabah, 1994, s.34-35). Bəzi nümunələrdə isə o Ucıbınıq adlanır. Onunla bağlı əsatiri örnəklərdə təsadüf olunan məsələlərdən biri "ölümdənqaçma" motividir.

Əfsanələrin qısa məzmununa görə Əzrayıl Ucubılıqın canını almaq istəyərkən o, geri çəkilir. Ucubılıqın addımları o qədər böyük imiş ki, Əzrayıl bir qədər yol gedib ona çatırmış. Bu vaxt Ucıbılıq yerini dəyişirmiş. Axırda Ucıbılıqın ayağına ağac batır. Bacısı onun ayağına batmış ağacı çıxarmaq istəyərkən Əzrayıl Ucıbılıqa çatıb canını ala bilir.

"Ölümdənqaçma" motivi, yaxud "ölümsüzlüyə, əbədi həyata qovuşma" istəyi Azərbaycan türk folklorunda çox təsadüf olunan qədim motivdir. Fikrimizcə, Ucıbılıq, Ucuquludur, yaxud Ucıbınıq sözlərindəki "ucu" sözü "Oğuz" sözünün təhrifə uğramış formalarından biridir. "Ucu" hissəsindəki uc-uz-Uğuz-Oğuz sözünün komponentidir. Bınıq-Qınıq isə Oğuz-türk tayfalarından birinin adıdır. Oğuz-Uğuz haqqında Azərbaycanda, eləcə də Naxçıvanda el arasında yaşayan əfsanələrə az təsadüf olunmur. Belə əfsanələrdə oğuzların özləri və atları haqqında azmanlıq təsəvvürləri əski dövrlərdən indiyədək qorunub saxlanmışdır. Lakin burada azmanlıq təsəvvürlərindən yox, deyildiyi kimi, "ölümdənqaçma" motivilə bağlı bir-iki məsələyə toxunmağı lazım bilirik.

Məlum olduğu kimi, "ölümdənqaçma" motivinə "Dədə Qorqud" boylarında da rast gəlinir. Dədə Qorqudla bağlı mifik əfsanələrdə "ölümdənqaçma" ana xətt kimi keçir.

Dədə Qorqud əfsanəyə görə qəbirqazanla rastlaşanda soruşur ki, "bu goru kimin üçün qazırsan?" cavab alır: "sənincün". Dədə hara qaçırsa qəbirqazanla rastlaşır. Ölüm ilan donuna girib Qorqudu təqib edir. Son nəticədə Dədə Qorqud ölümdən xilas ola bilmir.

Başqa bir əfsanəyə görə "Tanrı Dədə Qorquda ölümsüzlüyü bir şərtlə vəd edir: gərək o heç vaxt ölümü fikrinə gətirməsin. Bundan sonra Dədə Qorqud heç vaxt ölüm haqqında düşünmür və danışmır. Yalnız bircə kərə çölə qaçmış cöngəni qovarkən ağlına gətirir ki, "ölməsəm sənə çatacam, tutacam". Dərhal da necə böyük səhv etdiyini anlayır" ("Azərbaycan" jurnalı, s.112).

İstər bu əfsanələrdə, istərsə də Qorqudla bağlı digər əfsanələrdə belə bir məntiq ifadə olunur ki, "ölümdənqaçma"qla "ölümsüzlüyə" qovuşmaq mümkün deyil. Mifik inamlara görə adi insan "ölümsüzlüyə" qovuşa bilməz. Ölümsüzlük tanrıya, ərənlərə məxsusdur. Bu mənada Xızır İlyasın "Dirilik suyunu" içməklə "Ölümsüzlüyə" qovuşması da onun müqəddəsləşdirilməsi, ərən hesab olunması ilə bağlıdır. Azərbaycan folklorundakı bu motiv Naxçıvan regionundan toplanmış nümunələr üçün də xarakterikdir. Bu mifik təsəvvür islamdan çox-çox qabaqkı mərhələnin məhsuludur. Ucbılıqın da "ölümdənqaçma"sı mənşəcə belə arxaik qaynaqlarla bağlıdır.

"Kitabi-Dədə Qorqud" eposunda Qorqudun dili ilə deyilən belə bir təsirli parça var:

"Hanı dediyim bəy ərənlər? Dünya mənim deyənlər? Onlar dəxi bu dünyaya gəlib keçdi. Karvan kimi qondu, köçdü.

Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı?

Gəlimli, gedimli dünya. Son ucu ölümlü dünya" (Kitabi-Dədə Qorqud. Bakı, Azərnəşr, 1962, s.27, 41).

Nəzərdən keçirilən parçalarda insanların əski çağlarla bağlı əbədi həyata, ölümsüzlüyə qovuşmaq kimi qeyri-adi hissləri ifadə olunmuşdur.

Bununla yanaşı, fikrimizcə, yekun olaraq bir məsələni qeyd etməyi faydalı sayırıq. Bu mənada tədqiqatçı alim C.Bəydilinin "Qorqud" adının "ölümdənqaçma" motivi ilə bağlılığı" adlı elmi məqaləsi maraq doğurur. Müəllif yazır: "Qorqudun ölümdən qaçmağı motivi etnik-mədəni sistemin

Azərbaycan folklorunun kökünü, arxaik xüsusiyyətlərini özündə qorumuş mötəbər mənbələrdən biri "Kitabi-Dədə Qorqud" boylarıdır. Təsadüfi deyil ki, ədəbiyyatşünaslarımız haqlı olaraq "Kitabi-Dədə Qorqud"u söz sənətimizin ilk böyük abidəsi kimi təqdim edirlər. "Kitab" doğrudan da əvvəllərin əvvəli, əzəllərin əzəli, ilklərin ilkidir" ("Azərbaycan" jurnalı, Bakı, 1985, №11, s.81). Azərbaycan türklərinin Ana kitabıdır. Bu kitabın "mətni, mənşəyi, dövrü bir çox digər yönləri baxımından sirlidən sirli, açılmazdan açılmaz bir abidədir" "(Azərbaycan" jurnalı, s.81). Bu mötəbər əbədi abidə - "Kitabi-Dədə Qorqud" tariximizin təməl məsələsi - Azərbaycan xalqının mənşəyi və məskəni məsələsilə birbaşa bağlıdır, daha doğrusu, bu məsələlərin tam dəqiqliklə açılması üçün ən etibarlı mənbədir" ("Azərbaycan" jurnalı, s.91).

geniş kontekstinə çıxarılmalıdır. Məhz bu zaman ölümdən qaçmağın ölüb-dirilmə motivi, 300 il ömür sürmək və s. ilə adekvat təşkil etdiyi üzə çıxacaqdır" (Dədə Qorqud" dünyası. Bakı, Öndər, 2004, s.135). Tədqiqatçı belə qənaətə gəlir ki, "Kurkut" adının mənası, Qorqud Ata əslində də o biri dünyayla bağlı olduğundandır ki, "əcdad ruh(u)" anlamına uyğun gəlir. Bunlar isə ölümsüz və cisimsiz varlıqlardır" ("Dədə Qorqud" dünyası, s.137). Qorqudun tarixiliyi, bəzi qaynaqlara görə onun tarixi şəxsiyyət olması haqqında çox danışılıb. Lakin söhbət "ölümdənqaçma" motivindən getdiyinə görə, məsələyə bu yönümdən yanaşmaq istəyirik. Əfsanələrdə Qorqudun "ölümdənqaçma" motivi onun şamanlığı, övliyalığı ilə bağlı ola bilər. Bu, "ən nəhayət, özlüyündə ruhani varlıq olan bu türk övliyasının "Qorqud" adının "əcdad ruhu" anlamı onun bir varlıq kimi də mifoloji semantikasına uyğun gəlir" ("Dədə Qorqud" dünyası, s.138).

Naxçıvan regionunda "əcdad ruhuna", "ata-baba ruhuna" inam indi də inamlarda, əsatiri əfsanələrdə özünü göstərir. İnama görə, ruhlar ildə bir dəfə "Novruz" bayramına az qalmış on günlük - "ata-baba günləri"ndə yaşamış olduqları evlərinə, ocaqlarına baş çəkir. Göründüyü kimi, Naxçıvan regionunda indi də izlərini saxlamış belə inamlar ən əski çağların məhsuludur.

Beləliklə, Ucıbılıqla bağlı nəzərdən keçirilən əfsanələr Dədə Qorqudla, Oğuz-Uğuzla bağlı əsatirlərə çox yaxındır. Bəlkə də, onlarla eyni mənbədən qaynaqlanmışdır.

Dədə Qorqudla səsləşən əfsanələrdən biri də haqqında danışmaq istədiyimiz "Qorqudun anası" əsatiri əfsanəsidir. Əfsanədə su ilə əlaqədar antropomorfik obraz - pəri qızın iştirakı, Qorqud atanın bu qızla Türkün izdivacından dünyaya gəlməsi çox qədim əsatiri motiv olmaqla "Kitabi-Dədə Qorqud" dastanındakı "Basatın Təpəgözü öldürdüyü" boyu yada salır. Bu boydan məlum olduğu kimi, Təpəgöz çobanla Pəri qızının zinasından doğulmuşdur. Lakin bunlar arasında heç vaxt bir-birinə uyğun gələ bilməyən fərqlər vardır. Təpəgöz törədiyi mənşəyinə uyğun çox mənfi bir tip kimi səciyyələnirsə, dastana görə Qorqud ata tamam bunun əksinə bir surətdir. Daha doğrusu, bu obrazın xarakteri əfsanədəki mənşəyinə tamamilə ziddir. Lakin Təpəgözün törədiyi Pəri qızla, Qorqudun anası Pəri qız arasında fərq vardır. Bizcə, bu fərqin ən başlıcası budur ki, Qorqudun anası çox cəsur, qüvvətli, pəhləvan bir qız - amazonkadır. Bu fərqli xüsusiyyətlə yanaşı hər iki pəri qızı arasında çox yaxın oxşarlıq, bəlkə də eynilik vardır. Bunlardan birini qeyd etmək faydalı olardı.

Belə ki, eposa görə Təpəgöz, əfsanəyə görə Qorqud ata su stixiyası izdivacından doğulmuşdur.

Əsatiri əfsanəyə görə, Qorqudun anası pəri qızı dənizlə bağlıdır. Dastanda isə dəniz nağıllarımıza uyğun olaraq həmişə pəri qızlarının əlaqədar olduqları pinar-bulaqla əvəz olunmuşdur. Əfsanədə su stixiyası işıq stixiyası ilə də bağlıdır.

Əfsanəyə görə, Amanqızı axtaran türk dənizdə od-işıq yandığını görür. Yaxına getdikdə məlum olur ki, bu, Amanqızı və onun doğduğu uşaqdır, daha doğrusu, Qorqud atadır. Deməli, əsatirə görə, dəqiq deyilsə, Amanqızı və ondan doğulan Qorqud ata su, eləcə də işıq stixiyası ilə bağlıdır. Bəllidir ki, Oğuzun da işıq stixiyası ilə izdivacından Gün, Ay, Ulduz, su ilə izdivacından isə Dəniz, Göy, Dağ adlı övladları törəmişdir. Buradan göründüyü kimi, "Qorqudun anası" əfsanəsi sözün tam mənasında, demək olar ki, əsatirdir. Əfsanədə Oğuzla, Dədə Qorqud boyları, surətləri arasında yaxınlıq, müştərəklik çoxdur. Bunları tutuşdurmağı, daha doğrusu, müqayisə xatirinə müqayisə aparmağı lazım bilmirik. Çünki nəzərdə tutulmuş məqsəd və vəzifənin aydınlaşdırılması üçün vacib deyildir. Lakin bu məsələni xatırlatmaq vacibdir ki, xalq arasından toplanmış bu əfsanələr öz qədimliyi, arxaikliyilə "Kitabi-Dədə Qorqud" boylarından heç də geri qalmır. Bunu dastanın yaranması və formalaşması ilə bağlı deyilmiş bir fikir də təsdiq edir. Bizcə, "bu dastanlar müxtəlif zamanlarda baş vermiş hadisələrlə səsləşən əfsanə və rəvayətlərə, rəvayətlərdən əfsanələrə, əfsanələrdən nağıllara, boy və dastanlara çevrilmək yolu ilə həm kəmiyyətcə, yəni miqdarca, həm də keyfiyyətcə təkmilləşə-təkmilləşə gəlmişdir" (Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I k., Bakı, Azər.SSR EA Nəş., 1961, s.12) - fikrində bir məntiq, bir həqiqət vardır.

Araşdırma təsdiq edir ki, Naxçıvan regionunda Oğuzla, Dədə Qorqudla səsləşən əfsanələrə təsadüf olunması əsassız deyil. Belə folklor örnəkləri Oğuzla, Dədə Qorqudla bağlı izləri özündə saxlamaqla, həm də regionda şifahi ədəbiyyatın qədimliyini, bədii və milli özünəməxsusluğunu şərtləndirən amillərdən biridir.

Yusif SƏFƏROV,
filologiya elmləri namizədi